# AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
# RƏYASƏT HEYƏTİ
# Q Ə R A R

26 avqust 2002-ci il　　　　　　　　　No18/1

**Azərbaycan Milli Elmlər Akademiyasının**
**Naxçıvan Bölməsinin təşkil edilməsi haqqında**

Azərbaycan Milli Elmlər Akademiyasının müraciətini nəzərə alaraq, Naxçıvan Muxtar Respublikasında elmi-tədqiqat qurumlarının fəaliyyətinin gücləndirilməsi, mövcud elmi potensialdan istifadə olunmasının səmərəlillyinin artırılması, Naxçıvan tarixi, arxeologiyası, etnoqrafiyası və təbii sərvətlərinin öyrənilməsi üçün daha əlverişli şəraitin yaradılması məqsədilə Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyev 2002-ci il avqustun 7-də 1003 №- li sərəncam qəbul etmişdir.

AMEA-nın Rəyasət Heyəti qeyd edir ki, bu sərəncam cənab Heydər Əliyevin Azərbaycan Milli Elmlər Akademiyasının inkişafı haqqında qayğısının yeni təzahürü olmaqla yanaşı ölkəmizin qədim diyarı Naxçıvanın dünya siyasi və informasiya məkanına daha geniş qoşulması, orada olan tarixi abidələr əsasında Azərbaycan xalqının qədim tarixi köklərinin öyrənilməsi, Naxçıvan Muxtar Respublikasının təbii sərvətlərinin dərindən tədqiq olunması böyük maraq yaradacaqdır.

2002-ci il iyul ayının 12-də Naxçıvan şəhərində Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin yaradılmasına həsr olunmuş müşavirədə Azərbaycan Respublikasının prezidenti cənab Heydər Əliyev AMEA alimləri qarşısında mühüm vəzifələr qoymuşdur. Cənab Heydər Əliyev qeyd etmişdir ki, Azərbaycan Milli Elmlər Akademiyası bu sərəncamla çox böyük və vacib işə başlayacaqdır. Bu təkcə Naxçıvana aid olan iş deyildir. Bu işin dərin mənası onun Azərbaycan xalqının tarixi ilə sıx əlaqədar olmasındadır.

Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin 7 avqust 2002-ci il tarixli 1003 №-li sərəncamını yerinə yetirmək məqsədilə Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti qərara alır:

1. Azərbaycan Milli Elmlər Akademiyası strukturunda hüquqi şəxs statusuna malik Naxçıvan Bölməsi yaradılsın.

2. Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi tərkibində Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutu, Incəsənət, Dil və Ədəbiyyat İnstitutu, Təbii Ehtiyatlar İnstitutu, Bioresurslar İnstitutu, Əlyazmalar Fondu və Batabat Astrofizika Rəsədxanası təşkil edilsin.

3. AMEA Naxçıvan Bölməsinin sədri AMEA-nın vitse-prezidenti statusuna malik hesab edilsin.

4. Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Regional Elmi Mərkəzi, Naxçıvan Elmi-tədqiqat Bazası, Şamaxı Astrofizika Rəsədxanasının Batabat Stansiyası, Şamaxı Astrofizika Rəsədxanasının Ağdərə Stansiyası AMEA-nın Naxçıvan Bölməsinə verilsin.

5. Keçmiş Regional Elm Mərkəzinin, Naxçıvan Elmi tədqiqat bazasının, Şamaxı Astrofizika Rəsədxanasının Batabat və Ağdərə stansiyalarının:

5.1. İşçiləri əmək haqqı fondu ilə AMEA Naxçıvan Bölməsinin tərkibinə keçirilsinlər;

5.2. əmlakının bütün növləri AMEA Naxçıvan Bölməsinin tərkibinə keçirilsin.

6. Maliyə-İqtisad Şöbəsinə (Z.Nəcəfov) və Uçot və Mühasibat Hesabatı Şöbəsinə (İ.Quliyev) tapşırılsın ki, AMEA Naxçıvan Bölməsinin dövlət büdcəsindən hər il ayrıca sətirlə müəyyənləşdirilməsini nəzərə alsınlar.

7. MİŞ-ə (Z.Nəcəfov) tapşırılsın ki, AMEA Naxçıvan Bölməsinin maliyyələşməsinə aid məsələləri həll etsin.

8. AMEA Rəyasət Heyətinin aparatı bu qərardan irəli gələn məsələləri həll etsin.

9. AEA rəyasət Heyətinin 7 iyul 1972-ci il tarixli 33 №-li sərəncamı, AEA Rəyasət Heyətinin 16 mart 1978–ci il tarixli 14 №- li qərarı, AEA Rəyasət Heyətinin 25 mart 1971-ci il tarixli 13 № -li qərarı, AEA Rəyasət Heyətinin 5 noyabr 1997-ci il tarixli 20/7 №-li qərarı qüvvəsini itirmiş hesab edilsinlər.

10. Qərarın icrasına nəzarət AMEA-nın birinci vitse-prezidenti N.Quliyevə həvalə edilsin.

**Azərbaycan MEA-nın prezidenti** **M. Kərimov**

**Azərbaycan MEA-nın akademik-katibi** **T. Şahtaxtınski**